*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 390-395*

https://doi.org/10.62837/2026.1.390

**SƏBRİYYƏ YUSİF QIZI İSMİZADƏ**
**Azərbaycan Dillər Universiteti**
**Filologiya üzrə fəlsəfə doktoru**

# NADIN QORDIMER ROMANLARININ POETIKASI

**Xülasə**

Nadin Qordimerin yaradıcılığı CAR aparteid dövrü, irqçilik, ədalətsizlik, insanlararası münasibətlər və onların mənəvi seçimləri ilə bağlı mövzuları əhatə edir. Yazıçı hansı mövzuya müraciət edirsə, mütləq onu adi insanların şəxsi həyatları üzərindən göstərir. Belə yanaşma N.Qordimer yaradıcılığının səciyyəvi xüsusiyyətidir. Aparteid rejiminin insan həyatını necə məhv etdiyini, ədalətsiz cəmiyyətdə susqunluğun və mövqesizliyin, siyasətin şəxsi əlaqələrə təsirindən bəhs edən yazıçı eyni zamanda da ailədaxili münasibətləri pik həddə çatdırır.

O, romanlarında insan psixologiyasını önə çəkir, aparteid rejimində insanları rənginə və sosial sinfinə görə bölən sistemi ifşa edir. Onun realizmi insan münasibətlərinin böhrana məruz qaldığını və ayrı-seçkiliyə səbəb olduğunu göstərir. N.Qordimerin realizmi vicdan, şərəf və məsuliyyət məsələlərini qaldırır, onun təsir mexanizmini göstərir.

**Açar sözlər:** Nadin Qordimer, irqi ayrı-seçkilik, milli kimlik, roman

CAR ədəbiyyatının özünəməxsusluğu onun dil müxtəlifliyindədir. Bir qayda olaraq CAR ədəbiyyatı ingilisdilli ədəbiyyat, Afrikaans və ya Bur dilində yazılan ədəbiyyat və yerli xalqlarının çoxsaylı dillərindəki milli ədəbiyyata ayrılır. CAR ədəbiyyatı təkcə dil baxımından deyil, eyni zamanda dünya ədəbiyyatına verdiyi töhfələrlə fərqlənir. Cənubi Afrika yazıçılarının əsərləri XX əsrin sonları dünyanın hər yerindən oxucuların diqqətini cəlb etmişdir. 1974-cü ildə Nadin Qordimer (Nadine Gordimer, 1923-2014) "Mühafiz" (The Conservationist) romanına görə Buker mükafatını qazanmışdır. 1983-cü ildə "Mixael K.-nın həyatı və dövrü", 1999-cu ildə isə "Rüsvayçılıq" romanına görə Con Maksvell Kutzee (John Maxwell Coetzee, 1940) Bukerə layiq görülmüdür. Onu da qeyd edək ki, hər iki yazıçı – N.Qordimer 1991-ci ildə, C.M.Kutzee isə 2003-cü ildə ədəbiyyat üzrə Nobellə mükafatlandırılmışlar. N.Qordimerin əsərlərinin əksəriyyəti siyasi məsələləri və irqi ayrı-seçkiliyə bölünmüş vətəninin mənəvi və psixoloji gərginliyini araşdırır. Xüsusən də, Cənubi Afrikada irqlə bağlı olanlar siyasət və həyat, siyasət və insanlararası münasibətləri önə çəkir. N.Qordimer həmişə güc və həqiqəti sorğulayan adi insanların hekayələrini danışır, mənəvi seçimləri ortaya qoyur. Onun personajları ifadə etdikləri kimlik və inanc məsələləri ilə yanaşı, seçimləri ilə də önə çıxır.

N.Qordimer əsərlərində aparteid rejiminin həm ağdərili, həm də qaradərili insana göstərilən dağıdıcı təsirdən bəhs edir. CAR-da yaşayan faciələr onun

“Yadların torpağı” (A World of Strangers, 1958), “Fəxri qonaq” (A Guest of Honour, 1970), “Bürger qızı” (Burger's Daughter, 1979), “Oğlumun hekayəsi”( My Son's Story, 1990) romanlarında öz əksini tapır.

“Oğlumun hekayəsi” romanında siyasi dəyişikliklər dövründə vəzifə və öhdəliklər arasında qalan və seçim edən, verilən qərarın insani münasibətlərə təsirinin nə qədər çətin olduğunu göstərir. Romanın bir hissəsi atanın, Sonni soyadlı qaradərili məktəb müəlliminin baxış bucağından danışılır. Digər hissəsi onun şagirdi, oğlu Uilyamın və atasının ağdərili sevgilisi, insan haqları üzrə fəal Hannahın dilindən nəql edilir. Əsər yalnız siyasi məsələlər deyil, o cümlədən mənəvi seçim, xəyanət və nikah mövzusundan da bəhs edir. İnsanlararsı münasibətlərin məhv edilməsi, eləcə də etibarın və ikiüzlülüyün təsiri məsələləri də əsərdə açıq şəkildə araşdırılır. “Bürger qızı” romanı həm tarixi, həm də siyasi romandır. N.Qordimer müsahibələrinin birində bu roman haqqında qeyd edirdi ki, onun kitabı qadağan olunmuşdu və qadağanın səbəbi heç kimin kitab oxumadığı halda, hamının onu oxuya bilməsi idi. Buna qədər onlar kitabları sadəcə atırdılar [2].

Roman Yohannesburq şəhərinin aparteid dövrünü əhatə edir. Afrikanerlərdən olan Layonel Bürger aparteid rejiminə qarşı mübarizə aparır və dövlətə xəyanətə görə ömürlük həbs edilir. Bir müddət sonra həbsxanada dünyasını dəyişir. Onun on dörd yaşlı Rouz adlı qızı atasız böyüyür. Belə ki, Rouzun anası da həbs edilir və işgəncələrə dözməyərək ölür. Roza valideynləri kimi aparteid rejimi ilə mübarizə aparan ailədə böyüyür. Hələ atası sağ ikən övladlığa götürülən qaradərili Baasi adlı oğlanı da eyni aqibət gözləyir. Amerikalı tənqidçi Entoni Sempson yazır ki, əsərdəki “gerçək insanların hekayələri qəddarcasına real idi” [5]. Yazıçı bütün qüvvəsi ilə ölkənin ağır vəziyyətini təsvir edir, gerçəyi dünyaya çatdırmaq istəyirdi.

Ailəsinə məxsus evi satan Rouz atasının məhkəməsi zamanı onunla dostluq edən Konradla birlikdə yaşayır. Konrad ondan Bürger ailəsindəki rolunu sorğulayır. Buna bənzər suallar Rouzu düşünməyə vadar edir. O, Konraddan ayrılır və tək yaşamağa çalışır. Təsadüfən qaradərili universitet tələbəsi ilə tanış olur və onun ağdərililərin köməyindən imtina etdiyinin şahidi olur. Ağdərililərin digərlərinin nə istədiyini bilməyəcəyini və qaradərililərin nə vaxtsa özlərini azad edəcəklərini söylədiyini eşidir. Hakimiyyət orqanları tərəfindən izlənilən Rouz pasport almağı bacarır və atasının ilk həyat yoldaşı Keytin yanına, Fransanın Nitsa şəhərinə gedir. Orada o, böyük alim Bernard Şabalye ilə tanış olur. Amma bu münasibətlər uzun çəkmir və yenidən doğma şəhərinə qayıdır. N.Qordimer bir şəhərdən digərinə qaçan, bir yerdə qərar tutmayıb digərinə keçən gənc qızın simasında yenilikçi gəncliyi təcəssüm edir. Bu gənclik sonralar aparteid rejiminə qalıb gəlir, ölkəsini onun “caynaqlarından” qurtarır. Görünür elə bu səbəbdən Konor O’Brayn yazır ki, “Rouz yeni başlayan bir inqilabın qızıdır, amma onun üslubunda artıq Cənubi Afrika inqilabı ilə ortaq nələrsə var” [4].

Rouz ölkəsinin azadlığı uğrunda mübarizə aparır, siyasi tədbirlərdə iştirak edir. Tədbirlərin birində uşaqlıq dostu ilə görüşür. Amma bu görüş zamanı dostunun necə mənən sındığını, mübarizə aparmağın mənasız olduğunu dərk edir. Günah hissi ona hakim kəsilir və CAR-a dönməyə qərar verir. Eva Nedzialek yazır ki, qəhrəman fərdi azadlıq istəyi ilə "heç bir yerdən istək" gözləmir [3, s.33]. Düşünür ki, müəllif haqlıdır, belə ki, Rouz da ölkələr arasında "gəzir", özünü, öz kimliyini axtarır. Görünür elə bu səbəbdən yenidən ölkəsinə qayıdır.

Öz ölkəsində yenidən işə bərpa olur, Soueto şəhər klinikasında fizioterapevt işləyir. Amma bir müddət sonra şəhər məktəblərində təhsilinin aşağı olmasına və afrikaans dilində təhsilə qarşı etiraz dalğası başlayır. Şəhərdə ağdərili sosial işçilər öldürülür, iğtişaşlar törədilir. Polis üsyanı yatırır, bu üsyan onlarla insanın ölümünə səbəb olur. Daha sonra ağdərili hökuməti tənqid edənləri kütləvi şəkildə həbs edirlər və həbs edilənlər arasında Rouz da olur. Atasını da təmsil edən vəkil Rouzu qadağan olunmuş tələbləri irəli sürməkdə və tələbə üsyanına kömək etməkdə ittiham olunacağını gözləyir. Bundan sonrakı hadisələr həbs həyatını və ağır məşəqqətli mübarizəni təqdim edir. "Bürgerin qızı"nı təhlil edən İlsi Uilson haqlı olaraq qeyd edir ki, Qordimer insan həyatını və durumunu əks etdirmək üçün inanılmaz bacarığa sahibdir [8].

Qeyd etməliyik ki, yazıçının istənilən əsəri insan həyatı və onun bu həyat uğrunda mübarizəsini əks edir. N.Qordimerin "Culinin adamları" (July's People) romanı da qaradərililərin aparteid rejimini çökdürdükdən sonra ağdərili Benford Smeyls ailəsinin həyatından bəhs edir. Əsər bütün çılpaqlığı ilə vətəndaş müharibəsinin zorakılığından qaçan və CAR-ın adsız bir kəndində qaradərili qulluqçu Culinin ailəsinə sığınan afrikanerlərin təhlükəli həyatından bəhs edir. Smeyls ailəsi həmçinin aparteid keçmişinin narahatlığı ilə üzləşir və öz vəziyyətinin sərt reallığı ilə barışmalı olur. Qeyd edək ki, roman ilk öncə dəyişən şəraitin formalaşdırdığı insan münasibətləri haqqında təsirli bir həyat hekayəsidir. Eyni zamanda da insan davranışlarının sınağı, sevgi, sədaqət və dostluq hüdudlarını aşan gerçək hadisələrin əksidir.

Ailənin xanımı Morin daha çox təqiblərə məruz qalır və Yohannesburqdan qaradərili qulluqçusu Culinin kəndinə pənah aparır. O, bu kənddə yerlilərə qarışır və onlarla bir yerdə əkin sahəsində işləyir. En Tayler yazır ki, bu ailə liberal dəyərlərlə yaşayır və elə bu səbəbdən onların vəziyyəti daha ağırdır. N.Qordimer əgər onları irqçi və qara dərililərə qarşı şovinist baxışlarla əks etsə idi, haradasa başa düşülən olardı. Amma Smeyls ailəsi liberal dəyərlərlə yaşayır və elə bu səbəbdən onların qara dərililər tərəfindən təqib edilməsi həyatın ironiyasıdır: "Onları yerli əhali arasında sərt şəraitdə yaşayarkən irqçi kimi təsvir etmək çox asan olardı. Bunun əvəzinə, onlar əvvəldən qaradərililərə mərhəmətli yanaşır, siyasi cəhətdən məlumatlıdırlar və qaradərili cənubi afrikalıların rifahı ilə həqiqətən maraqlanırdılar" [7].

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 1, 2026
Səh. 390-395

Əsər revanşıst qaradərililərin ağdərililər üzərində qarət və qətlləri fonunda "Culi adamlarının" müxtəlif qrupları, o cümlədən onun ailəsi və kəndi, eləcə də Smeylslərin yaşamaq uğrunda mübarizəsini təsvir edir. Eyni zamanda insanların zorakılıqla, irqi nifrətlə və dövlət tərəfindən təqiblərlə, dəhşətli seçimlərlə necə üz-üzə qaldığını göstərir. Bu əsərdə düşmən və müttəfiq arasındakı münasibətlərin yalnız dəri rəngi ilə müəyyən edildiyi zaman irqi-ayrı seçkilik tam gücü ilə ortaya çıxır. CAR aparteidinin gerçək həyatı ağdərililərin gücü ilə eyniləşdirilirdisə, indiki hadisələrdə vəziyyət tərsinə çevrilir və qaradərililər birmənalı şəkildə gücün simvolu kimi çıxış edirlər.

CAR kəndlərində qaradərililər arasında yayılmış qarğıdalı unundan bişirilmiş kökə Smeyls ailəsinin dəhşətinə çevrilir. Şəhər həyatında ağ undan bişirilmiş çörək və digər məmulatlara öyrənən ailə quru və cod kökələri ilk günlər yeyə bilmir, lakin kənddəki həyat uzandıqca məcbur olub ondan istifadə edirlər.

Qarğıdalı unundan hazırlanan qara kökələr təkcə onların gündəlik həyatının göstəricisi deyil, həm də vəziyyətlərinin qaradərili kənd əhalisinin vəziyyətinə bərabər olduğunu önə çəkir.

Smeylslər qaçdıqları zaman daxmaların arxasında gizlətdiyi sarı maşın onların azadlıqlarının simvolu, başqa sözlə, şəhər həyatının bir parçasını təmsil edir. Cülinin onu icazəsiz sürdüyü gecə köhnə dəmir parçasının ailə üçün hansı dəyərə sahib olduğunu görürük. Məlum olur ki, sarı maşın ailəni keçmişə bağlayan son ümidin göstəricisidir. Ailə bu maşından istifadə etməsə də, onun mövcudluğu emosional sabitliyi qorumağa kömək edir, hüzur içində yaşadıqları günləri xatırladır.

"O, burada xoş qarşılanıb qarşılanmadığını bilmirdi, çünki bütün günü qaranquşlar kimi qaranlıqdan işığa uçub-gedirdi" [1, s.57]. Göründüyü kimi yazıçı qadının xatirələrini qaranquşa bənzədir, öz yuvasına uçmaq istəyən, lakin hələ də baharın gəlməsini gözləyən, "özgə" yuvasında qalmağa məcbur olan canlı kimi təqdim edir. Culinin kəndində yaşayan qadın digər insanların yaşadığı daxmaları müşahidə edir. Onların davranışları ibtidai həyatın təbii tərəflərini əks etdirir. Qadınlar da quşlar kimi öz yuvalarına tələsir, yuvalar da daxmalar kimi ailənin qoruya bildiyi məkanı göstərir. Qadın öz yuvasının dağıldığını, lakin nə vaxtsa qurulacağına ümid etmir: "Amma başqa bir dünyaya qərq olmaq, oxumaqdan zövq aldığı keçici bir zamanda, məkanda və həyatda olmaq hissi onun üçün qeyri-mümkün idi. O, başqa bir zamanda, məkanda, başqa bir düşüncədə idi. Bu düşüncə onun varlığna hakim kəsilir və onu rahatlayırdı. Sanki var gücü ilə şarı doldururdu. Artıq əvvəlki kimi deyildi. Artıq heç nə əvvəlki kimi deyildi"[1, s.109].

"The Guardian" yazırdı ki, "Qordimer bütün ağdərililərin düşünməli olduğu bir mesajı çatdırmaq istəyir: ölkənin gələcəyində necə iştirak edə biləcəklər" [6]. Bu fikir N.Qordimerin yaradıcılığını səciyyələndirir. Belə ki, yazıçı demək olar ki, bütün əsərlərində bir şəxsiyyət, bir fərd kimi çıxış edir, ölkəsinin gələcəyində bütün insanları dini və ya irqi fərqindən asılı olmayaraq birgəyaşayış şəraitində görürdü.

N. Qordimer realizmə sadiq qalaraq dünyanı olduğu kimi təsvir edir, insan əxlaqına və onun daxili münaqişələrinə üstünlük verirdi. O, təkcə insanın fiziki əzablarını təsvir etməklə kifayətlənmir, eyni zamanda da irqi ayrı-seçkiliyin emosional və psixoloji yükünə diqqət yetirirdi. N.Qordimer əsərlərində vicdan, şərəf və məsuliyyət məsələlərini qaldırır və şəxsi seçimlərin insana necə təsir etdiyini önə çəkirdi.
Onun əsərlərində reallığın təsviri hər zaman ədalətsizliyin etik şəkildə pislənməsi ilə bağlıdır. N.Qordimer aparteid rejiminin insanları rəngə və siniflərə görə bölünməsinin nə ilə nəticələnməsini, insan münasibətlərinin necə böhrana məruz qaldığını və ayrı-seçkiliyə səbəb olduğunu göstərirdi. N.Qordimer üçün birtərəfli problem mümkün deyildi. O, qeyd edirdi ki, belə şəraitdə tərəflər ya təcavüzkar, ya da qurban olur. Görünür elə bu səbəbdən onun personajları daima özlərini bu iki dünya arasında tapırdılar. Bir qayda olaraq yazıçı ailədaxili, nəsillərarası münasibətlərdəki münaqişələrə diqqət yetirirdi. Onun romanlarında xəyanət, fədakarlıq və siyasi ədalətsizliklə bağlı mənəvi qərarlardan yayınmağın mümkünsüzlüyü önə çıxırdı. N.Qordimerin realizmi təkcə personajlarının şəxsi dramlarını deyil, həm də ədalətsizliyi dəstəkləyən sosial mexanizmləri dərindən anlamağa kömək edirdi. Belə yanaşma ilə N.Qordimer yalnız öz dövrünün gerçəkliyini əks etdirmir, eyni zamanda siyasi və sosial institutları tənqid edirdi. Onun əsərləri tarixi kontekstdən azad olmağın, zorakılığın və zülmün dövrəsini qırmağın çətinliyini nümayiş etdirirdi. Nəticə olaraq onu da qeyd edək ki, N. Qordimer CAR-dakı insan hüquqları hərəkatının fəal iştirakçısı idi. O, yazılarında aparteidlə mübarizə aparır, irqi ayrı-seçkilik və insan hüquqlarının pozulması ilə bağlı məsələləri qaldırırdı. Aparteid rejiminin dərisinin rəngindən asılı olmayaraq insanın həyatını necə məhv etdiyini, təkcə fiziki deyil, həm də emosional, mənəvi-ruhani dünyasının necə əziyyət çəkdiyini təsvir edirdi. Onun əsərləri hüquqları pozulanların səsinə və CAR-da baş verən dəhşətlərə diqqət yetirməli olan beynəlxalq ictimaiyyət üçün bir nümunə idi. Bu mənada, o, insan hüquqları və irqi ayrı-seçkiliyə qarşı mübarizə aparan təşkilatları dəstəkləyir, əsərlərində ölkədə baş verən hadisələri dünyaya çatdırırdı.

## Ədəbiyyat

1. Gordimer, N. July's People. Penguin Books. 1982. 120p.
2. Gordimer, Nadine Interviewhttps://web.archive.org/web/20161109104825-/http://www.achievement.org/autodoc/page/gor1int-1
3. Niedzialek, E. The Desire of Nowhere– Nadine Gordimer's Burger's Daughter in a Trans-cultural Perspective // Colloquia Humanistica. N 7, 2018.
4. p.32-52.
5. O'Brien, C. Waiting for Revolution // The New York Review. October 25, 1979.
6. Sampson, A. Heroism in South Africa // The New York Times. August 19, 1979.

7. Stranger than fiction. https://www.theguardian.combooks/2001/apr/19/-fiction.artsandhumanities
8. Tyler, A. South Africa After Revolution // The New York Times. June 7, 1981, 1p.
9. Wilson, İ. At home with Nadine Gordimer, a very private individual // MailGuardian. 17 July 2014

**Сабрия Юсиф кызы Исмизаде**

**Резюме**

**Поэтика романов Надин Гордимер**

В творчестве Надин Гордимер затрагиваются темы эпохи апартеида в Южной Африке, расизма, несправедливости, межличностных отношений и морального выбора. Какую бы тему ни поднимала писательница, она обязательно показывает её через призму личной жизни обычных людей. Такой подход является характерной чертой творчества Н. Гордимер. Писательница, рассказывающая о том, как режим апартеида разрушал человеческие жизни, о влиянии молчания и бесправия в несправедливом обществе, а также о политике на личные отношения, одновременно выводит на первый план семейные отношения. Она освещает психологию человека, разоблачает систему, которая разделяла людей по цвету кожи и социальному классу в условиях апартеида. Её реализм показывает, что человеческие отношения находятся в кризисе и порождают дискриминацию. Реализм Н. Гордимер поднимает вопросы совести, чести и ответственности и показывает механизм их влияния.

**Ключевые слова:** Надин Гордимер, расовая дискриминация, национальная идентичность, роман

**Sabriyya Yusif İsmizade**

**Summary**

**The Poetics of Nadine Gordimer's Novels**

Nadine Gordimer's work touches on themes such as the apartheid era in South Africa, racism, injustice, interpersonal relationships, and moral choices. Whatever theme the writer raises, she always shows it through the prism of the personal lives of ordinary people. This approach is a characteristic feature of Gordimer's work. The writer, who tells of how the apartheid regime destroyed human lives, of the influence of silence and powerlessness in an unjust society, and of the impact of politics on personal relationships, also brings family relationships to the fore.

She highlights human psychology and exposes the system that divided people by skin colour and social class under apartheid. Her realism shows that human relationships are in crisis and give rise to discrimination. Gordimer's realism raises questions of conscience, honour and responsibility and shows how they influence people.

**Keywords:** Nadine Gordimer, racial discrimination, national identity, novel

**Rəyçi:** **dosent Gilə Mehdi qızı Hüseynli**